**GÜLNAR ƏQİQ**
**AMEA Nizami Gəncəvi adına Milli**
**Azərbaycan Ədəbiyyatı Muzeyi,**
**İtiqlaliyyət 53**
**gulnarjafarzade2002@gmail.com**

# QACARLAR DÖVRÜNDƏ NƏSRIN İNKİŞAFI VƏ BU DÖVRÜN TARIXİ-ƏDƏBİ MƏNZƏRƏSİ

## XÜLASƏ

Qacarlar dövründə yaşayan Əbdürrəzzaq bəy Dünbüli, Fazil xan Gərrusi, Mirzə Sadiq Hümay Mərvəzi, Rzaqulu xan Hidayət və digərlərinin yazdıqları əsərlər bu dövrün nəsri haqqında mükəmməl təsəvvür yaradır. Bu ədiblərin əksəriyyəti Qacarların saray katib və salnaməçiləri və ya mühüm mənsəb sahibləri olmuş, əsasən tarixi xronika məzmunlu əsərlər qələmə almışlar. Bunların arasında İranla yanaşı Qafqaz, o cümlədən bütöv Azərbaycanın tarix və coğrafiyasının öyrənilməsi üçün də əhəmiyyət kəsb edən çox qiymətli bədii və tarixi əsərlər, təzkirələr vardır.

Fikrimizcə, məşrutə dövründə İranda meydana gəlmiş milli şüurda oyanış və ictimai-siyasi fəallıq öz qaynağını bu dövrün ədəbi mühitindən almışdır. Bütün dünyada baş verən böyük inqilabi təbəddülatların nəticəsində meydana çıxan cərəyanlar İranda da öz tərəfdarlarını tapırdı. Qacarlar dövrünün sonlarında qələmə alınmış Zeynəlabidin Marağayinin "Səyahətnameyi-İbrahim bəy" romanı, Əbdürrəhim Talıbovun, Mirzə Ağa xan Kirmaninin və digər maarifçilərin əsərləri vətənpərvərlik və milli şüur təfəkkürünün formalaşması yolunda böyük addım idi.

Qacarlar dövründə qələmə alınan nəsr əsərləri sonrakı yüzillikdə yenilikçiliyə doğru gedən ilk cığırların açılmasında böyük rol oynamışdır.

**Açar sözlər:** Qacarlar, XIX yüzillik, nəsr, təzkirələr, yenilikçilik.

Tarix boyunca baş verən mühüm olaylar həmin dövrün ədəbi mühitinə də öz təsirini göstərmişdir. Əgər qüdrətli səfəvilər sülaləsinin hakimiyyət illəri həm İran, həm də Azərbaycanda mədəniyyət və incəsənətin çiçəklənməsi ilə müşahidə olunurdusa, əfşarlar dövründə ölkənin mədəni həyatında durğunluq yaşanırdı. XVIII əsrin sonlarında Qacarlar sülaləsinin siyasi hakimiyyətə gəlməsi ədəbiyyat aləmində də bir canlanma yaratdı. Bu dövrün ictimai-siyasi mənzərəsinə nəzər salsaq, ədəbi mühitdə baş verən "yenilikçilik" hərəkatının Çar Rusiyası və Osmanlı Türkiyəsi ilə həmsərhəd olan Azərbaycandan başladığının şahidi oluruq. XIX əsrdə mədəni həyatda baş verən dirçəliş prosesi bu dövrdə Şimali Azərbaycanda A. Bakıxanov, M. Ş. Vazeh, M. F. Axundzadə, İ. Qutqaşınlı, H. Zərdabi kimi maarifpərvər ziyalılar yetirmişdirsə, Cənubi Azərbaycanda da mədəniyyətin müxtəlif sahələrində, o cümlədən ilk mətbəəbnin yaradılması, qəzet-jurnal çapı, hərbi sənaye və silah istehsalı kimi sahələrdə və Avropa ölkələri ilə iqtisadi-mədəni əlaqələrin yaradılması işindəki nailiyyətlər bu dövrün əsas göstəriciləridir.

Qacarlar sülaləsinin hakimiyyətə gəlişi farsdilli poeziyanın inkişafında yeni mərhələnin başlanğıcı oldu. Bildiyimiz kimi 140 ilədək hakimiyyət sürən bu sülalənin əsası Ağa Məhəmməd şah tərəfindən 1794-cü ildə qoyulmuşdur. Bütün hakimiyyəti boyunca hərb meydanlarında ölkənin birləşdirilməsi uğrunda mücadilə aparan Ağa Məhəmməd şah mədəni həyata ilgi göstərə bilməmişdi. Lakin o "tacqoyma mərasimində Şeyx Səfi məqbərəsindəki səfəvi şahlarının qılıncını rəmzi şəkildə belinə bağlaması ilə qacarlar sülaləsinin səfəvilərin

rəsmən varisi olmasını və onların dini siyasətini himayət etməsini nümayiş etdirdi.” [1, 931] Ağa Məhəmməd şahın bu siyasi davranışı sonrakı qacar şahları tərəfindən də dəstəklənmiş və qacar dövlətinin siyasətini istiqamətləndirən əsas meyar din olmuşdur.

1797-ci ildə Ağa Məhəmməd xan Qarabağ xanlığının Şuşa şəhərində qətlə yetirildikdən sonra dərhal taxta onun qardaşı oğlu vəliəhd Baba xan Cahansuz əyləşdi və 1726-cı ildə Nadir şah Əfşar tərəfindən öldürülən babalarının şərəfinə özünü Fətəli şah adlandırdı. 1834-cü ilədək dövləti idarə edən Fətəli şahın hakimiyyət illəri də qansız-qadasız ötüşmədi, lakin onun özünün də şairlik istedadına malik olması şahı seirə-sənətə laqeyd qalmamağa sövq etdi. Məhz Fətəli şahın poeziyaya böyük dəyər verməsi həm sarayda, həm də saraydan kənar məhsuldar ədəbi mühitin yetişməsinə və poeziyada yeni inkişaf istiqamətinin yaranmasına səbəb oldu.

**Qacar sarayının ədibləri**

XIX yüzillikdə poeziya ilə yanaşı nəsr sahəsində də gözəçarpan inkişaf prosesi gedirdi. Qacarlar dövrü nəsrinin əsas istiqaməti saray tarixçiliyi, şairlərin yaradıcılığını əks etdirən təzkirəçilik, divanxana məktub və sənədlərindən ibarət olan “münşəat” yazmaq olmuşdur. Dövrün tanınmış və istedadlı ədibləri bu sahələrə aid qiymətli əsərlər yazaraq təkcə nəzm deyil, nəsr sahəsində də tərəqqi prosesini həyata keçirmişlər. Bu dövrün Əbdürrəzzaq bəy Dünbüli, Fazil xan Gərrusi, Mirzə Sadıq Hüma Mərvəzi Vəqayenegar, Mirzə İsa Qaimməqam Fərahani, Mirzə Tağı Əliabadi Sahibdivan, Mirzə Səfər Riyaz Həmədani, Mirzə Tahir Şeiri, Sultan Əhməd Mirzə Əzödüddövlə, Mahmud Mirzə Qacar, Cahangir Mirzə Qacar, Hacı Fərhad Mirzə Mötəmədüddövlə, İmamqulu Mirzə Qacar, Nadir Mirzə Qacar, Məhəmmədhəsən xan Etimadüssəltənə, Məhəmmədbağır Mirzə Xosrovi, Mirzə Məhəmməd İbrahim Nəvvab Bədayenegar, Mirzə Fəzlullah Şirazi Xavəri, Məhəmmədtağı xan Sepehr Lisanülmülk, Rzaqulu xan Hidayət və başqa mötəbər qələm sahibləridir. Adlarını sadaldığımız bu ədiblərin hər biri qacarlar dövründə sarayla bağlı olan yüksək mənsəb sahibləri, bəziləri isə bu sülaləyə mənsub şahzadələr olmuşlar.

Bu ədiblərdən bəziləri həm tarixi salnamələr, həm də təzkirələr yazmışlar. Təzkirəçilik sənəti qacarlar dövründə yüksək inkişaf mərhələsi keçmişdir. Təzkirə ərəbcə “zikr” sözündən götürülmüş, lüğəvi mənası “xatırlatma, yada salma” deməkdir. Təzkirələr məşhur ədib və şairlərin tərcümeyi-halı və yaradıcılığı haqqında məlumat verən əsərlərdir. Klassik Şərq poeziyasının öyrənilməsində əvəzsiz tədqiqat obyekti kimi təzkirələr ən etibarlı mənbə hesab edilir. Bu təzkirə müəlliflərinin həyat və yaradıcılığına nəzər saldıqda onların hər birinin elm və kamal sahibləri, əksər hallarda isə özlərinin də şair olduqlarınn şahidi oluruq.. Əsasən ərəb, fars və türk dillərində yazılan təzkirələrdə şairlərin doğum və vəfat tarıxi, həyatlarınının önəmli məqamları göstərilir, əsərlərinin qısa məzmunu şərh edilir və kiçik nümunələr verilirdi. Ensiklopedik xüsusiyyət daşıyan təzkirələr müasir ədəbiyyat tarixinin qədim şəkli hesab edilə bilər.

Araşdrmalar göstərir ki, Şərqdə ədəbi salnaməçilik və təzkirəçilik ənənəsi orta əsrlərdən başlasa da, daha çox səfəvilər dövründə rövnəq tapmış, XVI yüzillikdən etibarən şairlərin əsərlərindən nümunələr toplanaraq saray katibləri tərəfindən yazıya alınmışdır. Klassik Şərq, o cümlədən Azərbaycan ədəbiyyatının öyrənilməsində mühüm rol oynayan məşhur təzkirələrdən aşağıdakıların adlarını çəkə bilərik: Dövlətşah Səmərqəndinin “Təzkirətüş-şüəra”, Məhəmməd Ovfinin “Lübabül-əlbab”, Sam Mirzənin “Töhfeyi-Sami”, Əhdi Bağdadinin “Gülşəni-şüəra”, Əlişir Nəvayinin “Məcalisül-nəfayis”, Lütfəli bəy Azərin “Atəşkədeye- Azər”, Rzaqulu xan Hidayətin “Məcməül-füsəha”, Sadiq bəy Əfşarın “Məcməül-xəvas”, Əziz Dövlətabadinin “Soxənvərani-Azərbaycan”, Mir Möhsün Nəvvabın “Təzkireyi-Nəvvab”, Məhəmmədəli Tərbiyətin “Danişməndani-Azərbaycan”, Əli Nəzmi “Devist soxənvər”və digər əsərlər Şərq ədəbi mühitinin öyrənilməsi üçün əhəmiyyətli məxəzlər sayılır. Təzkirəçilik tarixi ilə bağlı aparılan araşdırmalar göstərir ki, “bu günədək azərbaycanlı müəlliflər tərəfindən 46 təzkirə

qələmə alınmışdır ki, bunların da təxminən yarısının yazılma tarixi qacarlar sülaləsinin hakimiyyət illərinə təsadüf edir.” [2, 39] XIX əsrin ədəbi mühitinə nəzər salsaq bu dövrdə poeziya sənətində mühüm bir canlanmanın və gözəçarpan sıçrayışın şahidi oluruq. Beləcə, poeziyanın inkişaf mərhələləri öz inikasını təzkirələrdə tapmışdır. Qacarlar sülaləsinin iki qüdrətli hökmdarının, Fətəli şah Qacar və sonralar Nasirəddin şah Qacarın şeirə-sənətə göstərdikləri qayğı sarayda təzkirəçilik ənənəsinin inkişafına səbəb olmuşdur. İranlı ədəbiyyatşünas alim Əhməd Gülçin Məani fars təzkirələrinin tarixini tədqiq edərkən “Tarixi-təzkirehayi-farsi” əsərində XIX əsrdə azərbaycanlı müəlliflər tərəfindən tərtib olunmuş 22 təzkirənin adını çəkir. Bu təzkirə yazarların əksəriyyəti qacar xanədanına mənsub şahzadələrdir. [3, 27]

Əbdürrəzzaq bəy Dünbüli, Məhəmməd Fazil xan Gərrusi, Bəhmən Mirzə Qacar, Hülaku Mirzə Qacar, Xudaverdi xan Qacar, Məhəmmədbağır xan Qacar, Məhəmmədhəsən xan Etimadüssəltənə, Mahmud Mirzə Qacar, Heydərqulu Mirzə, Seyfüddövlə Sultan Məhəmmədtağı və digərləri öz dəyərli əsərləri ilə qacarlar dövrünün tarixi-ədəbi mənzərəsinə aydınlıq gətirməklə yanaşı, həm də Azərbaycan təzkirəçilik sənətini zənginləşdirmişlər.

**Əbdürrəzaq bəy Dünbüli Azərbaycani** (1762-1827) Cənubi Azərbaycanın Xoy şəhərində doğulmuş, kişik yaşından dövrünün elm və fəzilət sahiblərinin himayəsində olmuş, öz bilik və istedadı ilə yüksək məqama çatmışdır. Bir müddət şahzadə Abbas Mirzə Qacarın xidmətində çalışmışdır. Dərin zəka və qüdrətli qələm sahibi olan Əbdürrəzzaq bəy “Məftun” ədəbi təxəllüsü ilə şeirlər də yazmışdır, qəzəl və qəsidələrindən və “Naz və Niyaz” adlı məsnəvidən ibarət şeir divanı da vardır. Onun ədəbiyyat aləminə üç təzkirəsi məlumdur: “Nigaristani-Dara”, “Təcrübətül-əhrar və təsliyyətül-əbrar” və “Hədayiqül-üdəba”.

Əbdürrəzzaq bəy “Nigaristani-Dara” təzkirəsini Təbrizdə olarkən 1825-ci ildə vəliəhd Abbas Mirzənin sifarişi ilə yazmışdır. Dörd nigarxanadan (fəsildən) ibarət olan bu əsər Fətəli şah Qacara, Qacar şahzadələrinə, saraya yaxın olan qələm əhlinə və əyalət şairlərinə həsr olunmuşdur. Təzkirədə təxminən iki yüzədək şair haqqında məlumat verilir. Əbdürrəzzaq bəyin burada verdiyi şeir nümunələri əsasən farsca olsa da, ara-sıra ərəbcə və türkcə şeirlərə də rast gəlinir.

Əbdürrəzzaq bəyin qələmə aldığı ikinci təzkirə “Təcrübətül-əhrar və təsliyətül-əbrar” adlanır, əsər üç fəsildən ibarətdir, birinci fəsil dünbüli tayfasının tanınmış alim və arifləri, ikinci fəsil zəndiyyə dövrünün şairləri, üçüncü fəsil isə müəllifin həyat və yaradıcılığı və dövrünün ictimai-siyasi hadisələri haqqındadır. M. Bahar bu təzkirəni bazgəşt dövrünə aid olan ən mühüm qaynaqlardan hesab edir.

Əbdürrəzzaq bəyin tarixi mövzuda qələmə aldığı “Məaseri-sultaniyye” adlı əsəri də məlumdur ki, qacarlar dövrünün tarixinin araşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

**Məhəmməd Fazil xan Gərrusi** (1784-1837). Məhəmməd Fazil xan İranın Həmədan vilayətinin Gərrus nahiyəsində doğulmuş, türk tayfası olan Bayandurlar nəslindəndir. Onun uşaqlığı Gərrusda keçmiş, sonra Reyə, oradan da Tehrana köçmüşdür. O, Tehranda saraya yaxın olan tanışları vasitəsilə Qacarlar sarayında işə düzəlmiş, öz bilik və zəkası ilə Fətəli şahın rəğbətini qazanmış və onun ən yaxın adamları sırasında yer almışdır. Azərbaycan türkcəsi ilə yanaşı, fars və ərəb dillərini də mükəmməl bilən Məhəmməd Fazil xan tez-tez sarayda təşkil olunan poeziya məclislərində iştirak edir və bu məclislərdə klassik şairlərin əsərləri ilə yanaşı öz şeirlərini də oxuyurdu. Buna görə də o, “Ravi” (rəvayət edən) adı ilə şöhrət qazanmış, şeirlərini də bu ədəbi təxəllüslə yazmış və divan tərtib etmişdir. Lakin ədəbi tənqidçilər onun nəsr əsərlərini poeziyasından daha yüksək qiymətləndirirlər. Görünür bu fikirlər onun qələmə aldığı ədəbi salnamələrin XIX əsrin Şərq ədəbi mühitinin öyrənilməsi üçün mühüm rol oynaması ilə bağlıdır. Təsadüfi deyil ki, adlarını çəkdiyimiz digər təzkirə müəllifləri

(Əbdürrəzzaq bəy Dünbüli, Rzaqulu xan Hidayət) öz əsərlərini qələmə alarkən məhz Fazil xanın "Əncüməni-Xaqan" təzkirəsindən faydalanmışlar. Bu təzkirə kitabı əsasən Fətəli şah Qacarın İsfəhanda təşkil etdiyi eyni adlı şairlər məclisi və bura toplaşan sənətkarlar haqqındadır. Əsər müqəddimə, dörd əncümən və xatimə hissələrindən ibarətdir Əsərin müqəddiməsində qeyd edildiyi kimi, Məhəmməd Fazil xan ondan daha öncə şahın sifarişi ilə əslən gürcü mənşəli Əhməd bəy Əxtər və onun qardaşı Məhəmməd bəy Bağır Nişati tərəfindən tərtib edilmiş "Əncümənara" adlı təzkirə müəlliflərin vəfatı üzündən bitirilməmiş və o, adı çəkilən əsər əsasında yeni bir təzkirə kitabı ərsəyə gətirmişdir. O, müqəddimədə bu dövrün şairlərinin adlarının heç bir kitbda səbt olunmadığını və bu əsəri Fətəli şahın göstərişi ilə yazdığını qeyd edir. [4,12] Birinci əncümən Qacar elinin müxtəsər tarixini, Fətəli şahın taxta çıxmasını, onun ölkəni idarə etməsi və yaradıcılığından seçilmiş nümunələri əhatə edir. İkinci əncümən Qacar şahzadələri və bu sülalənin adlı-sanlı əmirləri haqqındadır. Üçüncü əncümən sarayla əlaqəsi olan qələm əhlinə, dördüncü əncümən əyalət şairlərinə həsr edilmişdir. Xatimə (sonluq) müəllifin öz həyat və yaradıcılığı haqqındadır. Əsər 1818-1819-cu illərdə Tehranda yazılmışdır. Fətəli şah Qacarın hakimiyyət illərində (1797-1834) poeziyanın sarayda və saraydan kənarda inkişaf dinamikasını öyrənmək baxımından bu əsər qiymətli mənbə sayılır.

**Rzaqulu xan Hidayət** (1800-1871). Qacarlar dövründə yaşamış görkəmli dövlət xadimi və ədib olmuş, öz fəaliyyəti dövründə müxtəlif vəzifələrdə, o cümlədən İranda açılmış ilk Avropa tipli ali məktəb olan Tehran Darülfünunun rektoru vəzifəsində çalışmışdır. Yüksək istedad sahibi olan Rzaqulu xan yaradıcılığının ilk dövrlərində "çakər" təxəllüsü ilə şeirlər yazmış və Fətəli şah Qacarın baş saray şairi olmuş, "Əmirüşşüəra" ləqəbi almışdır Onun ədəbi irsi otuz min beytlik şeir divanından, "Gülüstani-İrəm" və digər altı məsnəvidən, üç təzkirə kitabından və bir neçə tarixi salnamədən ibarətdir. Rzaqulu xanın qələmə aldığı dəyərli əsərləri aşağıdakılardır: "Riyazül-arifin", "Rövzətüs-səfayi-Nasiri" və "Məcməül-füsəha".

Bu əsərlərdən "Riyaz ül-arifin" əsərini Rzaqulu xan Məhəmməd şahın dövründə yazmış və təsəvvüf məqam və hallarının şərhinə və məşhur sufi şairlərinə həsr etmişdir.

Rrzaqulu xan Nasirəddin şahın zamanında isə şahın sifarişi ilə Mirxondun məşhur "Rövzət üs-səfa fi seyrət ül-ənbiya vəl müluk vəl xüləfa" adlı əsərinin əsasında "Rövzət üs-səfayi-Nasiri" kitabını yazmışdır. Hidayət Mirxondun yeddi cildlik tarixi əsərinə daha üç cild əlavə etmişdir, bu kitabın onun tərəfindən əlavə edilən səkkizinci cildi səfəvilərin və əfşarlardan, doqquzuncu cildi əfşarların süqutu və zənd tayfasının hakimiyyətindən, qacarların səltənətə yiyələnməsindən bəhs edilir. Onuncu cilddə isə Məhəmməd şahın hakimiyyəti dövründən və Nasirəddin şahın hakimiyyətinin ilk onilliyindən söhbət açır. Bu əsəri qacarlar dövrünün ən mühüm tarixi mənbələrindən saymaq olar.

Rzaqulu xan Hidayətin "Məcməül-füsəha" təzkirəsi Nasirəddin şah Qacarın dövründə yazılımış və fars dilində yazıb-yaradan şairlər haqqında sonuncu mükəmməl təzkirə hesab edilir. Özündən əvvəl yazılmış onlarla təşkirəni mütaliə edərək sonuncu mükəmməl təzkirə yaradan Rzaqulu xan bu kitabda 115 şah və şahzadə şair, 327 müxtəlif dövlərdə yaşayan şairlər haqqında məlumat verir. Böyük alim, yorulmaz tədqiqatçı olan Hidayət şeiri və şairləri adı sənət növü hesab etmir, onları fövqəladə istedad sahibləri sayırdı. Onun əsərinin müqəddiməsindəki bu sözləri diqqəti cəlb edir: "Heç kəsdən gizlin deyil ki, fələyin dəyirman daşı çox ömürləri öz girdabına salaraq fırladıb udmuş, ən qədim zamanlardan bəri yalnız söz yadigar qalmışdır." [5, 52]

**Məhəmmədhəsən xan Səniüddövlə Etimadüssəltənə** (1843-1896) Marağa şəhərində dünyaya gəlmiş, qacarlar dövrünün tanınmış dövlət xadimi, elm və kamal sahiblərindən olmuşdur. O, Tehran Darülfünununu bitirdikdən sonra Fransaya getmiş, Parisdə təhsil almış, fransız dili, ədəbiyyatı, tarix və coğrfaiyası ilə yanaşı, ingilis dilini də öyrənmişdir. Təhsilini başa vurduqdan sonra İrana qayıdan Etimadüssəltənə Nasirəddin şahın zamanında həm Dar ül-

tərcümənin müdiri, maarif və mətbuat naziri, həm də şahın şəxsi mütərcimi olmuşdur. O, hər gün Nasirəddin şahı Avropa mətbuatının əsas xəbərləri ilə şəxsən tanış edərək şahda fransız dilinə maraq oyatmış və Nasirəddin şah az da olsa fransızca öyrənmişdi.

Etimadüssəltənə eyni zamanda ədəbi fəaliyyətlə də məşğul olmuş, Şərqin məşhur müsəlman qadınları haqqında üç cilddən ibarət mükəmməl bir təzkirə yazmışdır. O, 1887-1890-cı illərdə qələmə aldığı "Xeyrate-həssan" adlanan bu əsərdə 912 şairə haqqında məlumat vermişdir. İrandan təzkirəçilik tarixi ilə məşğul olan Əhməd Gülçin Məani bu şairələrdən 52-nin farsca yazan qadınlar olduğunu qeyd edir. [6, 610]

Etimadüssəltənə bu əsərində təkcə şair qadınlardan deyil, İslam Şərqinin adları tarixdə qalan həzrəti-peyğəmbərin anası Aminə binti-Vəhabdan tutmuş Fatimeyi-Zəhrayadək, həmçinin tanınmış ərəb, fars, türk, hind alim, ədib, arif, rəssam, xəttat qadınlardan da bəhs edir. Bu əsər Şərq qadınlarının ədəbi-mədəni və tarixi-siyasi rolunu öyrənmək baxımından çox qiymətli mənbədir. O, bu əsərində qacar şahlarının, o cümlədən Fətəli şahın hərəmxana qadınları haqqında da məlumat verir. Dil və yazı üslubu baxımından bu əsərin dibaçəsi sadə nəsrlə, kitabın mətni isə bəzi hallarda səclə yazılsa da, ümumiyyətlə sadə və aydın dildə yazılmışdır. İlk dəfə Tehranda müəllifin öz nəzarəti ilə 1887-ci ildə daşbasma üsulu ilə çap edilmişdir. [7, 14]

**Mirzə Seyid Əbülqasım Fərahani Qaimməqam** (1779-1835) İranın Ərak şəhərində dünyaya gəlib, atası Mirzə Bozorg Seyyidəlvüzəra Azərbaycan valisi idi. Atasının ölümündən sonra o, Təbrizə gedir, atasının yerinə qoyulur və "Qaimməqam" ləqəbi alır. O, Abbas Mirzənin vəliəhdliyi dövründə vəliəhdin şəxsi müşaviri (pişkar) olur və bilavasitə siyasi idarəçilik işlərində iştirak edir. İran-Rusiya müharibələrinin ikinci mərhələsində Qacar hökumətinə savaşı dayandırıb sülh bağlamağı təklif etdiyi üçün Qaimməqamı rusların tərəfdarı olmaqda günahlandırıb bir müddət vəzifəsindən uzaqlaşdırdılar və o, Xorasana gedir. Lakin 1827-ci ildə rus ordusu qraf Paskeviçin başçılığı ilə Təbrizi işğal etdikdə Fətəli şah bu uzaqgörən siyasətçini yenidən Tehrana saraya dəvət edir. İran və Rusiya arasında 1828-ci ilin oktyabrında imzalanan Türkmənçay sülh müqaviləsinin farsca mətnini də Qaimməqam hazırlamış və ruslara ödəniləcək təzminatı da Fətəli şahdan alaraq Təbrizə gətirmişdi. Qaiməqam bu sülh müqaviləsi ilə şahzadə Abbas Mirzənin və ailəsinin rus hökuməti tərəfindən daim himayə ediləcəyini də rəsmilşədirmişdi. Bu müqavilənin imzalanması ilə artıq rus dövləti Abbas Mirzəni İranın gələcək şahı kimi rəsmi olaraq qəbul edirdilər. 1834-cü ildə Fətəli şahın vəfatından sonra Qaimməqamın həyata keçirdiyi uzaqgörən tədbirləri nəticəsində Abbas Mirzənin oğlu Məhəmməd Mirzə taxta çıxanda rusların da ona dəstəyi olmuşdu. Qaimməqamın İran ərazisində nisbi sabitliyin yaradılmasında, xüsusilə gənc vəliəhdin hakimiyyətə gətirilməsində mühüm rolu olmasına baxmayaraq Məhəmməd şah səltənətinin ikinci ilində ondan bədgüman olmuş, saray intriqalarının qurbanı olan Qaimməqam 1835-ci ildə həbs edilərək öldürülmüşdü..

Bu böyük ictimai-siyasi dövlət xadimi həm də istedadlı ədib və şair idi. Onun gözəl xətti, aydın və səlis yazısı var idi. Yazıçılıq istedadına və yaratdığı nəsr nümunələrinə görə müasirləri Qaimməqamı "fars inşasının allahı" adlandırmışlar. [8, 65]

Qaimməqamın nəsr əsərləri onun Fətəli şah, vəliəhd Abbas Mirzə və Məhəmməd Mirzənin adından müxtəlif məsul şəxslərə yazdığı məktub və fərmanlardan bə bir neçə risalədən ibarətdir. Onun bu məktubları sonralar qacarlar dövrünün ictimai-siyasi mənzərəsini əks edtirən mühüm mənbə kimi "Münşəaate-Qaimməqam" adı altında çap olunmuşdur. O, bu məktublarında Sədinin "Gülüstan"ında olduğu kimi nəsre-müsəccedən və arabir şeirlərdən istifadə etmişdir.

Qaimməqamın şairliyi də var idi, "Sənayi" təxəllüsü ilə hərdən şeirlər yazırdı. Mənbələrdə onun üç mun beytə qədər şeiri var idi. Onun vəliəhd Məhəmməd Mirzənin mədhinə yazdığı "Cəlayirnamə" adlı məsnəvisi var ki, sonralar İrəc Mirzə özünün "Arifnamə" məsnəvisini ona nəzirə olaraq yazmışdır. [9, 48]

**Mirzə Məhəmmədsadiq Mərvəzi Vəqayeneqar** (1772-1834) Mərvdə əsilzadə ailəsində dünyaya gəlmiş, əvvəlcə Məşhəddə, sonra Nəcəfdə ali dini təhsil almış, atasının ölümündən sonra Kaşana gəlmişdir. Kaşanda dövrünün tanınmış şairlərindən Səbahi Bidqolinin yanında poeziya sənətinin sirlərinə yiyələnmişdir. Bir müddət sonra Tehrana Fətəli şahın sarayına gəlmişdir. Sarayda əvvəlcə münşi (katib), sonra isə "vəqayeneqar" (salnaməçi) vəzifəsinə təyin edilmişdir. Fətəli şahın göstərişi ilə Mirzə Məhəmmədsadıq Mərvəziyə qacarların tarixini yazmaq tapşırılmışdı. O, 1800-cü ildə iki cilddən ibarət olan əsərini yazmağa başladı və əsərin "Tarixe-cəhanara" adlanan birinci cildini 1810-cu ildə yazıb bitirmişdir. Sonra tarixə aid "Qəvaid əl-müluk" və "Şime-Abbasi" adlı iki kitab da yazmış, Fətəli şahın tərifinə yazılmış qəsidələri toplayaraq toplu halına salmış və şah özü bu topluya "Ziynət ül-mədayeh" adını vermişdi.

Mərvəzi qacarlar dövrünün məşhur ədiblərindən sayılır, nəsr əsərləri yazmaqda çox mahir idi, lakin Məlikəşşüəra Bahar onun yazı tərzini yeni hesab etsə də, Qaimməqama çatmadığını yzaır. [10, 337]

**Yəğma Cəndəqi** (1781-1859). Mirzə Rəhim Yəğma İranın Semnan vilayətinin Xur mahalının Cəndəq adlanan  ucqar və yoxsul bir kəndində doğulmuşdu. Yəğma Cəndəqinin çox acı və əzablı həyatı olmuş və çəkdiyi iztirablar  bədii yaradıcılığında da öz əksini tapmışdır. Onun bədii irsi əsasən qəsidə, qəzəl, qitə, rübai və tərcibəndlərdən ibarət olan şeirlərindən və yazdığı məktublardan ibarət nəsr əsərlərindən ibarətdir. Yəğmanın nəzm əsərlərinin əsasını müxtəlif şəxslərə yazdığı tənqidi-satirik məzmunlu həcvnamələr təşkil edir. O, bu tip şeirlərində həddindən artıq nalayiq sözlər işlətmiş və çəkdiyi zülmlərin acısını misralarda ifadə etməyə çalışmışdır. [11, 64]

Yəğmanın "Münşəaatı-Yəğma" adı ilə çap olunan və divanının üçdə bir hissəini təşkil edən nəsr əsərləri onun övladlarına (Mirzə İsmayıl Hünər, Mirzə Məhəmmədəli Xətər, Mirzə Əhməd Səfayi və Mirzə İbrahim Dəstan), müasirləri olan qələm əhlinə, o cümlədən şahzadə Seyfəddövlə və Bəhaüddövləyə, Yəğmanın şeirlərini toplayıb divanını tərtib edən Hacı Məhəmməd İsmayıla və b. yazdığı məktublarıdır. Onun məktublarının dili sadə, aydın və hər cür bəzək-düzək və təmtəraqdan uzaqdır. Bunu bir çox tədqiqatçılar Yəğmanın ərəb dilinin incəliklərinə bələd olmaması ilə əlaqələndirirlər. O bəzən bu məktublarında o vaxtadək fars nəsrində işlənməsi dəbdə olan ərəbcə söz və ifadələrinin əvəzinə çoxdan unudulmuş qədim fars sözləi işlədirdi ki, bu da yeni fars nəsrinin formalaşmasında mühüm rol oynamışdı.

**İrəc Mirzə** (1873-1926). Ulu babası, babası və atası şair olan şahzadə İrəc Mirzə Cəlalülməmalikin şair olması təəcüblü deyildi. O, Təbrizdə şair Qulamhüseyn Mirzə Behcət Qacarın ailəsində doğulub. İrəc Mirzə şairlik etməyə başladığı ilk dövrdə Təbrizdə vəliəhd Müzəffərəddin Mirzənin sarayında yaşamış və əsasən məədhiyyələr yazmaqla məşğul olmuşdur. Onun yaradıcılığının ikinci və məhsuldar mərhələsi məşrutə inqilabı və bu inqilabın təsiri ilə baş vermiş ictimai-siyasi təbəddülatlar dövrünə təsadüf edir. İrəc Mirzənin Təbrizdə yaşadığı zaman gözəl xətlə qələmə aldığı dəftərxana məktubları yeni fars nəsrinin ən mükəmməl nümunələrindəndir. Rəsmi üslubda qələmə alınmış bu məktublar sadə və aydın dildə yazılmış, o dövrün ədəbi mühiti üçün yenilik idi.

Adlarını sadaladığımız ədiblərin hər birinin XIX əsr fars nəsrinin sadələşməsində mühüm xidmətləri olmuş, onlar yadigar qoyduqları dəyərli əsərləri ilə dövrün ictimai-siyasi və mədəni mənzərəsini işıqlandırmaqda böyük rol oynamışlar.

## Qaynaqlar

1. پیرنیا، حسن. آشتیتنی، عباس اقبال. پرویز بابایی. تاریخ ایران. تهران. انتشارات نگاه. 1388
2. Musalı, Vüsalə. Azərbaycan təzkirəçilik tarixi. Bakı, Elm və təhsil. 2012. 377 s.
3. معانی، احمد گلچین. تاریخ تذکره های فارسی. ج اول. تهران، انتشارات دانشگاه تهران. 1363
4. گروسی، فاضل خان. تذکره ی انجمن خاقان. بتصحیح توفیق صبحانی. تهران. انتشارات روزنه.
5. هدایت، رضاقلی خان. مجمع الفصحا. بتصحیح مظاهر مصفا. ج اول. انتشارات امیر کبیر. 1361
6. معانی، احمد گلچین. تاریخ تذکره های فارسی. ج سوم. تهران، انتشارات دانشگاه تهران. 1363
7. خیرات حسان. به کوشش ابوالقاسم رادفر. تهران. انتشارات پژوهشگاه علوم انسانی و مطالعات فرهنگی. 1394.ج اول
8. آرین پور، یحیی. از صبا تا نیما. ج اول. تهران، انتشارات زوار. 1372
9. ایرج میرزا. دیوان کامل اشعار. باهتمام محمد جعفر محجوب. تهران، نشر اندیشه. 1353
10. بهار، محد تقی . سبکشناسی. ج اول. تهران، انتشارات طوس. 1385
11. کلیات یغما جندقی. به ویراستاری علی آل داود. تهران، انتشارات توس. 1384

Aqiq Gulnar

The progress of the prose in the Kajars' era
and the literary-historical appearance of this period

Summary

The writers as Abdurrazzak Beg Dunbuli, Fazil Khan Garrusi, Mirza Sadiq Khumay Mervazi, Rzakulu Khan Hidayat and others living in the Kajars' era make a perfect imagination about the prose of this period. Most of these writers were secretaries and chroniclers, or important personalities in the Kajars' court and had wrote mainly historical chronicles.

Among them are valuable literary and historical works that are very important for the studying of the history and geography of the Caucasus, including the whole Azerbaijan.

In my opinion, the awakening of national consciousness and socio-political activity that formed in Iran during the Constitutional monarchy (Mashrute) period has taken its source from the literary environment of that period. The currents that have arisen as a result of the great revolutions surrounded all over the world have found their supporters in Iran as well.

The book "Sayahatnameyi-Ibrahim Beg" written by Zeynalabidin Maraghai, at the end of the Kajar period, also the novels of Abdurrahim Beg Talibov, Mirza Agha Khan Kirmani and other enlightener novels played a major role in the opening of the first roads to innovation movement in the next century.

Key words: Kajars, 19th Century, prose, lieterary chronicles, innovation.

Агиг Гюльнар

Развитие прозы в эпоху Каджаров и
историко-литературное обозрение этой эпохи

Резюме

Произведения Абдурраззаг бек Думбули, Фазиль хан Герруси, Мирза Садиг Хумай Мервези, Рзакулу хан Хидаята и других поэтов, живших в эпоху Каджаров, создают ясное представление о прозе той эпохи. Большенство этих литераторов были придворными секретарями и летописцами, или же высокими должностными лицами, писавшие , в основном, историческую хронику. Среди них есть исторические произведения и антологии, которые очень ценны в изучении истории и географии Ирана, Кавказа, в том числе и Азербайджана в целом.

По нашему мнению, в Иране в период революции, пробуждение, возникшее в национальном сознании, и общественно-политическая активность берут свои истоки из литературной среды этой эпохи.

Направления, возникшие в результате происходившего во всём мире революционного переворота, нашли своих сторонников и в Иране. Созданные в конце перида правления Каджаров роман Зейналабдина Марагаи «Сеййахетнамеи-Ибрагим бек» , произведения Абдуррагима Талыбова, Мирза Ага хан Кирмани и других просветителей стали первым шагом на пути к патриотизму и формировании национального самосознания.

Прозаические произведения, созданные в период Каджаров, в последующих столетиях сыгрыли большую роль в поисках первых путей к новаторству.

**Ключевые слова** : Каджары, XIX век, проза, антология, новаторство.

Redaksiyaya daxil olma tarixi: 21.04.2019
Çapa qəbul olunma tarixi: 03.08.2019
Filologiya elmləri doktoru, Kamil Allahyarov tərəfindən çapa tövsiyə olunmuşdur.